UOT 14.7.032

F Ə L S Ə F Ə

**Sevinc Şaxhüseynova Asif qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: sevinj.shah@gmail.com**

# ANTİK KLASSİKA İNCƏSƏNƏT HAQQINDA

**Xülasə:** "Antik klassika incəsənət haqqında" adlı məqalədə Klassik dövr bədii təcrübəsinin nəzəri cəhətdən ümumiləşdirilmə ənənələrinin formalaşması nəzərdən keçirilir. Müxtəlif sənət nəzəriyyələrinin yaranmasında dövrün bədii yaradıcılıq nümunələri və fəlsəfi əsərləri əsas mənbə kimi diqqətə çatdırılır. Sokrat, Platon və Aristotellə təmsil olunmuş klassik dövrün nəinki fəlsəfə, həmçinin, incəsənət və sənətşünaslıq üçün də məhsuldar olduğu qeyd edilir.

**Açar sözlər:** Antik klassika, antik incəsənət, antik fəlsəfə, antik sənət nəzəriyyəsi, Sokrat, Platon, Aristotel

Tarixin ən maraqlı dönəmlərinin birində mövcud olan Antik Dünya öz cazibə və füsunkarlığı ilə bu günədək insanları valeh edir. Klassik fəlsəfənin yaranması, elm və incəsənətin inkişafı antik mədəniyyətin ən böyük uğurlarındandır. Dövrün məhsuldarlığı, intellektual və bədii zənginliyi, bir sıra sahələrdəki nailiyyətləri özündən sonra da bir çox nəsillər üçün örnək olmuşdur.

Mürəkkəb məzmuna malik olan bu sahələri öyrənərkən onların keçdiyi inkişaf yolunu bir neçə mərhələyə bölmək zərurəti yarandı. Antik mədəniyyət, incəsənət, o cümlədən, antik dövrdə olduqca zəngin olan təsviri sənət tarixləri ənənəvi olaraq 4 mərhələyə bölünür:

1) Homer dövrü, e.ə. XI-VIII əsrlər;
2) Arxaik dövr, e.ə. VIII-VII əsrlər;
3) Klassik dövr, e.ə. VI-IV əsrin I yarısı;
4) Ellinizm dövrü, e.ə. IV əsrin II yarısı – b.e. V əsri, yəni Roma imperiyasının süqutuna qədər.

Fəlsəfə tarixi sahəsində bu dövrləşmə bir qədər fərqlənir:

1) Sokrata qədərki dövr, e.ə. VII-V əsrlər;
2) Klassik dövr, e.ə. V – e.ə. IV əsrin I yarısı;
3) Ellinizm dövrü, e.ə. IV əsrin II yarısı – b.e. II əsri;
4) Roma dövrü, e.ə. I-II əsrlər – b.e. V-VI əsrləri.

Həm fəlsəfə, həm də incəsənət tarixində Klassik mərhələ ən bəhrəli dövrdür. İncəsənət tarixində Klassik mərhələ özü də 3 yarımdövrə bölünür:

a) e.ə. VI əsr Erkən klassika, b) e.ə. V əsr Orta klassika və c) e.ə. IV əsrin I yarısı Yetkin klassika.

Fəlsəfə tarixində isə Klassik mərhələ yalnız 3 dahi filosofun – Sokrat, Platon və Aristotelin adları ilə bağlıdır. Bu mütəfəkkirlərin yaradıcılığı nəinki antik fəlsəfənin taleyini həll etdi, hətta incəsənət nəzəriyyəsinin inkişafı üçün də zəmin yaratdı. Fəlsəfi təfəkkürün inkişafı incəsənətin nəzəri cəhətdən dərk edilməsini də mümkün etdi.

İstənilən nəzəriyyənin mənbəyi təcrübə olduğu kimi, Antik sənət nəzəriyyəsinin də mənbəyi, ilk növbədə, incəsənətin müxtəlif sahələrində yaradılmış əsərlərdir. Bədii ədəbiyyat, teatr, dekorativ-tətbiqi sənət, memarlıq, heykəltəraşlıq Antik dövrün daha çox inkişaf etmiş sənət növləridir ki, bu sahələrdə yaradılan bir çox əsərlər indiyədək insanları valeh edir.

Bədii ədəbiyyatda Homer ("İliada", "Odisseya"), Hesiod ("Teoqoniya", "Zəhmətlər və günlər"), dramaturgiyanın, o cümlədən faciə janrının yaradıcıları – Esxil ("Zəncirlənmiş Prometey", "Oresteya" və s.), Sofokl ("Şah Edip", "Antiqona", "Elektra" və s.), Evripid ("Medeya", "Alkesta" və s.), komediya janrının banisi – Aristofan ("Qurbağalar", "Arılar", "Atlılar", Quşlar" və s.), yeni komediyanın nümayəndəsi – Menandr, Roma komedioqrafları – Plavt, Terensi, Roma ədəbiyyatı – Vergiliy ("Eneida"), Lukretsi ("Şeylərin təbiəti haqqında"), Apuley ("Qızıl eşşək"), Horatsi ("Pizonlara məktub"), dekorativ-tətbiqi sənətdə dipilon vazaları, qara fiqurlu və qırmızı fiqurlu vazalar, memarlıqda ionik, dorik və korinf sütunlar (orderlər), heykəltəraşlıqda Miron, Fidi, Skopas, Poliklet, Praksitel, Lisipp, Leoxar, Aqesandr, Afinodor, Polidor və digərlərinin əsərləri bu qəbildəndir.

Bədii əsərlərin nəzəri cəhətdən dərk edilməsi Klassik mərhələdən də əvvəl başlamış, hələ Sokrata qədərki dövrün filosofları sənətlə bağlı maraqlı fikirlər söyləmişlər. Məsələn, ilk sənət nəzəriyyəçiləri sayılan pifaqorçuların musiqiyə, sofistlərin ədəbiyyata aid tədqiqatları olmuşdur. Hətta sofistlərdən Qorgi, təsviri sənətdə xarici amillərin köməyilə daxili əhvalın ifadə edilməsini söyləmişdir. Sofistlər, ilk dəfə olaraq, kompozisiyanın müxtəlif növlərinin xüsusiyyətini, hissələrin tama münasibətini öyrənməyə başlamışlar.

Lakin e.ə. V-IV əsrlərdə qədim Yunanıstanda heykəltəraşlığın, bundan da çox-çox əvvəl memarlığın və vaza sənətinin yüksək inkişaf səviyyəsi əldə etməsinə baxmayaraq, bizədək gəlib çatan traktatlar içərisində təsviri sənətə aid bir dənə də olsun nəzəri əsər yoxdur. Bu qəbildən ilk əsər Ellinizm dövründə Vitruvinin e.ə. I əsrdə yazdığı "Memarlıq haqqında 10 kitab" adlı traktatıdır. Təsviri sənətə və

memarlığa aid ikinci belə əsər nəinki o dövrdə, hətta sonralar da yazılmadı. Yalnız bir fakt istisna təşkil edir, bu da e.ə. V əsrin II yarısında yaşayıb yaratmış qədim yunan heykəltəraşı Polikletin "Kanon" adlı nəzəri əsərinin olmasıdır. Bizədək çatmayan bu traktatda Poliklet heykəltəraşlıqda ölçü proporsiyaları haqqında yazaraq, insan təsvirində ideal nisbətə və qanunlara riayət etməyə çağırır. Məsələn, insan fiqurunda baş ilə bədənin nisbətinin 1:8 olmasını düzgün sayır. «Dorifor» və «Diadumen» kimi məşhur heykəllərin müəllifi olan Poliklet, deyilənə görə, bu nəzəri əsərin praktik nümunəsi kimi "Kanon" adlı heykəl də yaradıb, lakin bunun nə dərəcədə doğru olması məlum deyil. Belə hesab edilir ki, "Kanon" adlı heykəl olmayıb, bu, elə həmin «Dorifor»dur.

Artıq fəlsəfənin Klassik mərhələsində incəsənət barədə fikir yürütmək təcrübəsi kifayət qədər idi. Antik filosofların əksəriyyətinin incəsənətlə əlaqədar fikirləri mövcuddur. Hətta o dövrün məşhur filosofu Sokratın əvvəllər heykəltəraşlıqla, Platonun rəssamlıqla məşğul olması da xüsusi maraq doğurur.

Obyektiv idealizmin yaradıcısı sayılan Sokrat özü heç nə yazmadığı üçün onun fəlsəfi təlimi haqqında məlumatı şagirdləri və müasirlərinin Sokrat haqqında söylədiklərindən öyrənirik. Onun fikrincə, fəlsəfə təbiətin öyrənilməsi ilə məhdudlaşmır. Fəlsəfə insana necə yaşamağı öyrətməlidir. İnsan yalnız öz hökmünə tabe olan şeyləri dərk edə bilər. Bu da təbiət, dünya deyil, onun ruhudur (qəlbidir). Buna görə də insan yalnız öz qəlbi barədə əsil biliyə malik ola bilər. İdrakın əsas məqsədi – özünüdərketmədir. «Öz-özünü dərk et, onda insanları və allahları da dərk edərsən». Təliminin mərkəzində insan problemi dayanan Sokrat incəsənətlə bağlı məsələləri də bu antropoloji mövqedən həll edir.

Sokrat gözəllik anlayışını gözəl predmetlərdən ayırır, o, məqsədəuyğunluqla üst-üstə düşməlidir. Əşya, nəyəsə gərək olduqda gözəldir. İncəsənətdə yalnız gözəl və mənəvi keyfiyyətlərə malik olan və mənəvi ideal səviyyəsinə yüksələ bilənlər təsvir edilə bilər. Bu ideal – cismən və ruhən gözəl olanlardır. Buna yunanlar «kalokaqatiya» deyirdilər. «Kalokaqatiya» anlayışı estetikliklə utilitarlığın (yəni gərəkli olmağın, praktik əhəmiyyətə malik olmağın) vəhdəti mənasını verir. Sokrata görə, əgər əşya heç nəyə yaramırsa, onda o, gözəl sayıla bilməz. İnsanda isə yalnız xarici yox, daxili gözəllik də olmalıdır. Sokrat gözəlliklə mənəviyyatın, etikliklə estetikliyin əlaqəsini qeyd edirdi.

Demək olar ki, bütün antik filosoflar (Platondan başqa) hesab edirdilər ki, incəsənət təbiəti təqlid edir. İncəsənətə gerçəkliyin təqlidi, inikası kimi baxan Sokratın fikrincə, təqlid, yəni «mimesis» – bədii yaradıcılığın əsas prinsipidir. Heykəltəraşlıq və rəssamlıq insanın xarici görkəmini əks etdirsələr də, onlar təkcə işin bu tərəfi ilə kifayətlənməməlidirlər. Yalnız poeziya deyil, heykəltəraşlıq və rəssamlıq da «qəlbin əhvalını» ifadə etməlidir.

Fəlsəfi fikir tarixində o qədər də böyük rol oynamayan sokratçılar – kirenaiklər (Kiren məktəbi – başçısı Aristipp), kiniklər («it» deməkdir, məktəbin başçısı Antisfen), meqariklər (başçısı Evklid) və elido-eretrik (başçısı Fedon) məktəbləri də fəaliyyət göstərmiş, onların nümayəndələrinin maraqlı traktatları olmuşdur. Məsələn, Simmi «Musiqi haqqında», «Epos haqqında», «Gözəlliyin mahiyyəti haqqında», Kriton «Gözəllik haqqında», «İncəsənət haqqında», «Poeziya sənəti haqqında» adlı əsərlər yazmış, lakin o dövrün yalnız bəzi traktatları qorunub saxlanmış, bu əsərlərin əksəriyyəti isə bizədək gəlib çatmamışdır.

Sokratdan dərs almış Platon öz əsərlərini dialoqlar şəklində yazırdı. Platondan bizə 34 dialoq çatmışdır. Onun «İon», «Fedr», «Fedon», «Dövlət», «Ziyafət», «Qanunlar», «Böyük Hippi», «Fileb» əsərləri sırf estetikaya həsr edilmişdir. «Timey» əsərində isə Platonun yalnız estetikası deyil, bütünlükdə fəlsəfəsi yüksək zirvəyə çatmışdır.

Özündən əvvəl irəli sürülən ideyaları öz beyin süzgəcindən keçirən Platon, ilk dəfə olaraq, sənətşünaslıq haqqında əhatəli fikirlər söyləmişdir. Onun ədəbi görüşləri «Ziyafət», «Fedr», «Fileb», «Qanunlar», «Dövlət» kimi dialoqlarında verilmişdir. Platon incəsənətdən və xalq rəvayətlərindən ehtiyatla istifadə etməyi məsləhət görürdü. Əgər xalq əfsanələrində insan əxlaqını pozan ünsürlər varsa, dövlət təftiş heyəti onların yayılmasına imkan verməməlidir. Bu cəhətdən Platon xalq əfsanələrinə və dini əsatirlərə ehtiyatsız yanaşan Homer və Hesiod kimi ədibləri tənqid etmişdir. Ümumiyyətlə, Platon sənət əsərinə yalnız əxlaqi və utilitar nöqteyi-nəzərdən yanaşırdı. Platona görə sənət əsəri insanı kədərləndirməməli, onda pis əhval yaratmamalıdır. O, yeri gəldikcə ədəbiyyatşünaslıq məsələlərinə də toxunurdu. Ədəbi növləri bir-birindən ayırmaq məsələsinə gəlincə, Platon bunun yalnız sxemini vermişdi.

Platona görə, ilham poeziyaya daha çox aiddir. Bunu o, «İon» əsərində göstərir. Burada Sokrat müsabiqədən yenicə qayıtmış İona deyir ki, sənin qalib gəlməyinin səbəbi, sənə Allah tərəfindən ilham verilməsidir. Ona görə də sən məhz Homerin əsərlərini belə yaxşı ifa etdin. Sənin Homer haqqında söylədiklərin vərdişin nəticəsi deyil, əgər belə olsaydı, sən digər şairlərin də əsərlərini belə bacarıqla danışa bilərdin. Platon hesab edirdi ki, ilham yalnız ədəbiyyat və musiqi sahəsinə aiddir. İncəsənətin digər növlərinə gəldikdə isə, xüsusilə rəssamlıq və heykəltəraşlıqda vərdiş, bilik və texniki ustalıq tələb edilir.

Digər antik filosoflar kimi, Platon da incəsənəti təqlid kimi başa düşür. Lakin o bunu özünəməxsus tərzdə izah edir. Onun fikrincə, rəssamın çəkdiyi şəkil surətin surəti, kölgənin kölgəsi, təqlidin təqlididir. Skamyanı dülgər düzəltsə də, skamya anlayışı Allah tərəfindən yaradılmışdır. Deməli, dülgər, onun beyninə qoyulmuş hə-

min anlayışı təqlid edərək skamya yaratmış, rəssam isə bu skamyanı təqlid edərək 3-cü skamya yaratmış və əsil həqiqətdən bir qədər də uzaqlaşmışdır.

Ümumiyyətlə, Platon belə hesab edirdi ki, ideal dövlətdə incəsənətə yer olmamalıdır. Çünki çox vaxt incəsənətdə yalnız gözəllik deyil, eybəcərlik də təsvir edilir; aktyor sərxoşları, caniləri və digər pis adamları oynayır, rəssam çirkin hadisə və sifətlər çəkir, şair axmaq hərəkət və ehtirasları təsvir edir və beləliklə həm özü bu hissləri keçirir, həm də adamlarda belə hisslər oyadır, onları təfəkkürdən, müdriklikdən, təmkinlilikdən uzaqlaşdırır. Buna görə də ideal cəmiyyətdə bu cür sənət növlərinə yer olmamalıdır.

Platona görə, məzhəkə, ideal cəmiyyətdə daha qorxuludur. Çünki mənfi obrazlarda iştirak edən aktyorun öz xarakteri də rola uyğun dəyişə bilər. Buna görə də komik əsərə o zaman icazə verilə bilər ki, burada əcnəbilər və ya qullar iştirak etsin, həmin mənfi cəhətlər də ideal dövlətin vətəndaşlarına yox, onlara keçsin. Faciə əsərlərini isə ciddi senzuradan sonra tamaşaya buraxmaq olar. Senzorlar 50 yaşdan cavan olmamalıdır ki, onlar ideal dövlətin vətəndaşları üçün nəyin yaxşı, nəyin pis olduğunu düzgün müəyyən edə bilsinlər. Əgər elə bir "ehtiyac yoxdursa, onda faciə əsəri də artıqdır, çünki bəzən hətta məşhur faciə ustaları insanlarda lüzumsuz olaraq iztirab, göz yaşları və dəhşətli qorxu hissləri oyadırlar ki, bu da onların iradəsini, möhkəmliyini və şuxluğunu zəiflədir. Belə əsərlərin cəmiyyətə heç bir xeyri yoxdur" [18, s.11-12].

İncəsənətin insana təsirinə hələ Orfey haqqında əsatirdə, daha sonra pifaqorçularda rast gəlirik. Bunun əsaslı təhlilini isə ilk dəfə Platon verir. Platon şairlərə və rəssamlara inanmadığını söyləyir. O öz dövrünün heykəltəraşlarından yalnız Lisippin yaradıcılığını qiymətləndirir. Çünki «o, insanları olduqları kimi deyil, göründükləri kimi təsvir edir» [12, s.42].

A.F.Losev yazır ki, Platonda sənət növlərinin təsnifatına rast gəlmirik. Platon incəsənəti görünən və eşidilən növlərə bölür. Birinciyə rəssamlıq və heykəltəraşlıq, ikinciyə isə musiqi və poeziya aiddir. «Musiqi» dedikdə Platon bu sözün birbaşa mənasında elə musiqini nəzərdə tutur. Poeziya anlayışına isə həmçinin musiqi və rəqs aiddir. Ümumiyyətlə, Platon poeziya, musiqi və orxestikanı çox vaxt vəhdətdə nəzərdən keçirir. Epos və dram təqlidi sənət növləri hesab edilir. İncəsənətə utilitarlıq nöqteyi-nəzərindən yanaşan Platon «Dövlət» əsərində bütün incəsənət xadimlərini aşpazlarla, dərzilərlə, bərbərlərlə, dayələrlə, donuzotaranlarla, alverçilərlə və b. ilə bir sıraya qoyur. Platon poeziya və musiqinin tərbiyəvi əhəmiyyətini qiymətləndirərək, onların "cəmiyyətdə metodik cəhətdən inkişaf etdirilməsi zərurətini"[18, s.56] söyləyir.

Platon «Dövlət» əsərində musiqi alətləri barədə yazır ki, bir-birindən simlərinin sayına görə fərqlənən və hər sim yalnız bir ton üzərində köklənən yalnız iki simli

aləti – lira və kifaranı saxlamaq olar. Platon çoxsimli alətləri qəbul etmirdi. Zərb alətlərini də rədd edirdi. Hətta fleytaya da icazə vermirdi, yalnız çobanlar tütək- dən istifadə edə bilərdilər. Platon bunların izahını da verir. Belə ki, kifara Platonun pərəstiş etdiyi Apollona məxsus olduğu üçün ondan istifadə etmək olar, "fleyta isə pis əxlaqı ilə seçilən satir Marsiyə aid olduğuna görə yolverilməzdir" [18, s.139].

Platon ideal dövlətdə yalnız o sənətlərin mümkünlüyünü qəbul edir ki, onlar mətinlik və vətəndaşlıq hissləri tərbiyə etsin. Məsələn, allahlara nəzirə, himnlər və s. Buna görə də musiqidə dorik və frigik ladlardan istifadə edilməlidir. Platon xor bayramlarına və rəqslərinə icazə verir, çünki onlar ölçü və səliqə tərbiyə edir.

Platon xorları da bir neçə yerə ayırır: bir qismi layiqlidir, bir qismi isə layiqli deyil, rəqslərin də bəziləri dövlət əhəmiyyətli deyil. Mahnı Allaha dua şəklində olmalıdır, özü də bu duada şər yox, xeyir dilənməlidir. Musiqi yalnız və mütləq sözlü olmalıdır. Sözsüz musiqidən heyvan səsləri çıxarmaq üçün istifadə etmək olar. Burada insana aid heç nə yoxdur. "Fleyta və ya kifarada sözsüz çalmaq – zövqsüzlükdən xəbər verir" [18, s.160].

Mənbələrdən və öz əsərlərindən Platonun rəssamlıqla məşğul olmasını öyrənsək də, Platonun «təsviri sənət» terminini işlətməsinə və rəssamlığın sistematik nəzəriyyəsinə aid fikirlərinə rast gəlmirik. Əsərlərində o, rəssamlardan Poliqnotun, Zevksisin, Aristofontun, Dedalın adlarını çəkir. Platonun heykəltəraşlığa olan marağı çox böyük olsa da o, bu sənətin təhlilini demək olar ki, vermir. Əsərlərində də heykəltəraşların adlarını nadir hallarda çəkir.

Aristotel (e.ə. 384-322) «Poetika» və «Ritorika» kimi sırf ədəbi-nəzəri xarakter daşıyan əsərlərindən başqa, ədəbiyyat tarixi nöqteyi-nəzərindən əhəmiyyətli olan «Teatr didaskaliləri məcmuəsi», «Homer məsələsi», «Şairlər haqqında» kimi əsərlər də yazmış, lakin bu əsərlər qalmamışdır. Bizə natamam şəkildə çatmış «Poetika»nı isə antik ədəbiyyatşünaslığın ən böyük nailiyyəti hesab etmək olar. Əsərin I hissəsi 26 fəsildən ibarətdir, komediyaya həsr edilən II hissədən isə bizə lap kiçik parçalar çatmışdır. Burada o, Homeri, Sofoklu, Evripidi, rəssamlardan Poliqnotu, Zevksisi və b. yada salır. Aristotelin yunan dramı, eposu, memarlığı, musiqisi, teatrı, rəssamlığı ilə yaxşı tanış olması üzə çıxır. Bu hissə həm də yunan incəsənəti haqqında məlumat verə bilərdi. Birinci hissə daha çox faciə, katarsis və təqlid problemləri ilə cəlb edir.

Aristotel incəsənətin tərbiyəvi roluna da fikir verir. O, bunu «katarsis» – təmizlənmə kimi şərh edir. Katarsis – incəsənətin, xüsusən də faciə əsərinin əsas məqsədidir. Qorxu və iztirablar nəticəsində insanın ruhu mənfi hisslərdən azad olur, təmizlənir. Aristotel dorik və lidik ladları tərifləyir, yəni onları bu baxımdan məqsədəuyğun sayır, frigik ladı isə pisləyir, çünki o, katarsis təsir göstərə bilmir.

Aristotel belə hesab edir ki, incəsənətin bütün növləri bir-biri ilə əlaqədardır, çünki hamısına təqlid xasdır. Təqlid – insanın fitri qabiliyyətidir. Platondan fərqli olaraq, Aristotel hesab edir ki, incəsənət – gerçəkliyin təqlidi təzahürüdür və özünün təqlid nəzəriyyəsini ideyalar haqqında təlimin əsasında deyil, varlıq haqqında təlim, forma və materiyanın dialektikası əsasında qurur. Ona görə də Aristotelin estetikası ontoloji xarakter daşıyır. Forma və materiya haqqında təlimi Aristotel incəsənətə də tətbiq edir. Aristotel insanın yaradıcılıq fəaliyyətini kəşf hesab etmir. Yeni forma yaradılması ideyası Aristotelə yaddır. Onun fikrincə, rəssam yeni forma yaratmır və ümumiyyətlə təbiətdə olmayanı yarada bilməz. O, yalnız öz qəlbində olan hazır formanı müvafiq materiya ilə əlaqələndirir.

«Poetika» əsərində Aristotel təqlidlə bağlı bir neçə fikir söyləyir, məsələn: «Əvvələn, təqlid uşaqlıqdan bütün insanlara xasdır… və ilk bilikləri də məhz onun sayəsində əldə edirlər; ikincisi, təqlid və onun nəticəsi hamıya zövq verir» [1, s.48]. Beləliklə, Aristotel incəsənətin idraki və estetik funksiyalara malik olmasını söyləyir. «Təqlid» və ya incəsənətin gerçəkliyə münasibəti, yəni incəsənətdə realizm – antik estetikanın klassik problemlərindəndir.

Aristotelə görə, poeziya və musiqi incəsənətin ali növləridir. Təqlidi sənətlərə poeziya ilə yanaşı dram da daxildir. Faciə və komediyanı nəzəri cəhətdən ilk dəfə işləmiş Aristotel «Poetika» əsərində onların geniş təhlilini verir: «Həcm etibarilə faciənin bölmələri bunlardır: proloq, episodiy, eksod və öz növbəsində, parod və statimə bölünən xor hissəsi. Proloq – faciədə xorun daxil olmasınadək olan tam hissədir, episodiy – faciənin bitkin xor nəğmələri arasında olan tam hissəsidir, eksod isə – faciənin ondan sonra xor nəğməsi olmayan tam hissəsidir, xor hissəsindən isə parod – birinci tam xor nitqidir, stasim – anapestasız və troxeyasız xor nəğməsidir. …Xorun özü də bir aktyor sayılmalıdır... Aktyorlara gəlincə, ilk dəfə Esxil onların sayını birdən ikiyə qaldırmışdır; xorun partiyasını da o azaltmış, dialoqu ön plana çəkmişdir; üç aktyor və dekorasiyanı isə ilk dəfə işlədən Sofokl olmuşdur» [1, s.70, 89, 50-51].

Artıq Aristotelin dövründə incəsənətin növləri o dərəcədə inkişaf etmişdi ki, onların təsnifatı barədə fikir söyləmək üçün imkan yaranmışdı. Estetik fikir tarixində Aristotelin mühüm xidmətlərindən biri məhz təqlidin başlıca əlamətlərindən çıxış edərək incəsənətin növ və janrlarının təsnifatını verməsidir. Bu əlamətlərə təqlidin nə ilə olması, nəyin təqlid olunması və təqlidin necə olması daxildir. «Təqlidin nə ilə olması» dedikdə Aristotel təqlidi, yəni incəsənəti əmələ gətirən materialı nəzərdə tutur. Sənətin müxtəlif növlərini fərqləndirən amillərdən biri məhz hər sənət sahəsinin öz müvafiq materialına, təqlid vasitəsinə malik olmasıdır. Məsələn, musiqidə təqlid səslə, poeziyada sözlə, rəngkarlıqda rənglə olur. Aristotel təqlidin

ikinci başlıca əlamətləri ilə əlaqədar daha çox faciə və komediyanın fərqləndirici xüsusiyyətləri üzərində dayanır. Onun fikrincə, faciə bizdən yüksəkdə dayanan, bizdən yaxşı, gözəl, ülvi adamların təqlidi olduğu halda, komediya – bizdən aşa- ğı, pis adamların təqlididir. Ona görə də «nəyin təqlid olunması, yaxşının yoxsa pisin?», sualına Aristotel belə cavab verir: «faciədə bizdən yaxşılar, komediyada bizdən pislər təqlid olunur». Bu həm də Aristotelin faciə və komediyaya verdiyi tərif hesab edilir. Üçüncü halda epos, lirika və dram fərqləndirilir. «Təqlidin necə olması» dedikdə o nəzərdə tutulur ki, yəni eyni cisim, əşya və ya hadisəni cürbəcür təqlid etmək olar: həm nəzmlə, həm lirika ilə, həm də dramla: «Təqlidin eyni bir növündə eyni bir şeyi də cürbəcür təqlid etmək olar» [1, s.46].

Bütün antik filosoflar kimi Aristotel üçün də musiqiyə maraq vacib şərt olub. Yunanların təsəvvürünə görə musiqi fəlsəfənin ayrılmaz hissəsi idi. Aristotel musiqini bir çox antik nəzəriyyələrə uyğun olaraq riyaziyyatla vəhdətdə, hətta hesabın bir hissəsi kimi nəzərdən keçirir. Aristotelə qədər filosoflar içərisində çox az adam musiqidən alınan həzz barədə danışırdı. Aristotel isə bu termindən qorxmayaraq, onu çox tez-tez işlədir və bu məsələdə də Platondan fərqlənir. Lakin Aristotelin "musiqi ilə bağlı fikirləri onun ayrı-ayrı əsərlərinə səpələnərək, əsasən təsadüfi xarakter daşıyır" [19, s.545-564].

Aristotel hesab edirdi ki, gənclərə mənəvi cəhətdən xeyri olan fənləri tədris etmək lazımdır. Rəsm çəkməyi biz ona görə öyrənmirik ki, o bizə ticarət və ya başqa işlərdə kömək etsin. Rəsm çəkməklə məşğul olmaq fiziki gözəlliyin müəy- yən edilməsi zamanı insan gözünü inkişaf etdirir («Politika»). Aristotelə görə, şəkli nəzərdən keçirən zaman ondan alınan zövq və sevinc şəklin maddi forması ilə deyil, mənası ilə verilir. Lakin Aristotel təsviri sənət mövzusundan, demək olar ki, yan keçir. Rəssamlıq və heykəltəraşlıq Aristoteli tamamilə maraqlandırmır, bu barədə onun mülahizələri yoxdur. Yalnız belə bir fikrə rast gəlirik ki, heykəltəraşlıq dəqiq sənətlərdəndir. İncəsənətdə müdriklik dəqiqliklə ölçülür. Fidi və Polikleti biz ona görə müdrik adlandırırıq ki, onlar öz sənətlərində kamilliyə çatmışlar.

Aristotel fəlsəfəsində antik sənət nəzəriyyəsi və estetika özünün ən yüksək inkişaf pilləsinə çatır.

Beləliklə, antik filosofların incəsənətlə bağlı fikirləri sənət nəzəriyyələrinin inkişafına böyük töhfələr verdi.

**Ədəbiyyat siyahısı:**

1.Aristotel. Poetika. Bakı. 1974.
2.Aslanov A. Estetika aləmində. B., 1987.
3.Sultanlı Əli. Antik ədəbiyyat tarixi. B., 2008.

4. Şahhüseynova S. Estetikanın inkişafında əsas mərhələlər. Antik dövr. Məqalələr toplusu. B., 1995. səh. 93-107.
5. Şahhüseynova S. Antik filosoflar musiqi haqqında. Məqalələr toplusu. B., 2000. səh. 71-79.
6. Şahhüseynova S. Antik estetikada poeziya, teatr və təsviri sənət. Məqalələr toplusu. B., 2001. səh. 21-30.
7. Şahhüseynova S. Qədim dövr Şərq mədəniyyəti (Metodik göstərişlər). B., 2002.
8. Şahhüseynova S. Estetika. Dərslik. B. , 2015.
9. Аристотель. Соч. в 4-х т. -х. Т. 4. М. , 1983.
10. Боннар А. Греческая цивилизация. В 3-х т-х. М., 1992.
11. Винкельман. История искусства древности. М., 2000.
12. Гильберт К., Кун Г. История эстетики. М., 2000.
13. Гнедич П. П. История искусств. М., 2005.
14. Дмитриева Н. А. Краткая история искусств. М., 1991.
15. История эстетики. тт I-III. М., 1962-1967.
16. История эстетичской мысли. В 6-ти т-х. М., 1985-87.
17. Лосев А. Ф. История античной эстетики. Софисты. Сократ. Платон. М., 1969.
18. Лосев А. Ф. История античной эстетики. Высокая классика. М., 1974.
19. Лосев А. Ф. История античной эстетики. Аристотель и поздняя классика. М., 1975.
20. Садохин А. П., Грушевицкая Т. Г. Мировая художественная культура. М., 2000.
21. Татаркевич В. Античная эстетика. М., 1977.
22. Шахгусейнова С. А. Философско-исторические основы эстетической культуры. – "Социально-гуманитарные дисциплины в творческом вузе". матер. II Межд. науч. -практ. конф. Луганск, 2012 г. стр. 14-18.
23. Шахгусейнова С. А. Религиозно-мифологические основы эстетической культуры. "Традиционная и современная культура". Матер. II Межд. науч. -практ. конфер. Пенза-Москва-Минск, 2012. Стр. 5-9.
24. https://ru.wikipedia. org/wiki/%D0%9F%D0%BE%D0%BB%D0%B8%D0%BA%D0%BB%D0%B5%D1%82

**Севиндж Асиф кызы Шахгусейнова**

**АНТИЧНАЯ КЛАССИКА ОБ ИСКУССТВЕ**

**Резюме:** В статье "Античная классика об искусстве" рассматривается формирование традиций теоретического обобщения художественной практи-ки классического периода. Уделяется внимание философским произведениям и образцам художественного творчества данного периода, которые являютсяглавными источниками в образовании различных теорий искусства. Отмеча-ется плодотворность классического периода не только в области философии,которая представлена Сократом, Платоном и Аристотелем, так же в области искусства и искусствоведения.

**Ключевые слова:** античная классика, античное искусство, античная фи-лософия, античная теория искусства, Сократ, Платон, Аристотель.

**Sevinc Asif gizi Shahhuseynova****ANTIQUE CLASSIC ABOUT ART**

**Summary:** The article "Antique classic about art" examines the formation of the traditions of theoretical generalization of the artistic practice of the classical period. Attention is paid to philosophical works and samples of artistic creativity ofthis period, which are the main sources in the formation of various theories of art. The fruitfulness of the classical period is noted not only in the field of philosophy,which is represented by Socrates, Plato and Aristotle, but also in the field of art andart history.

**Key words:** antique classic, antique art, antique philosophy, antique theory ofart, Socrates, Plato, Aristotle.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23. 09. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Tamilla Əhmədova**